## İlin birinci yarısının nəticələri müzakirə edilmişdir

İyulun 13-də Bakı Şəhər Vergilər Departamentinin (BŞVD) Bəyannamələr idarəsində 2012-ci ilin birinci yarısının yekunları müzakirə olunmuşdur. Tədbiri giriş sözü ilə BŞVD-nin rəisi Alimpaşa Məmmədov açaraq ilin ilk altı ayı ərzində görülmüş işlər, funksional vəzifələrin icrası və qarşıda duran vəzifələr barədə qısa məlumat vermişdir.

Tədbirdə çıxış edən vergilər nazirinin müavini Sahir Məmmədxanov Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət orqanları qarşısında qoyulmuş vəzifələrin və ölkə başçısının verdiyi tapşırıqların icrası ilə əlaqədar vergi orqanlarının işlərini daha da gücləndirməsinin, hər bir vergi işçisinin məsuliyyətini daha da artırmasının vacib olduğunu vurğulamışdır. Vergi işçilərinin diqqətinə çatdırılmışdır ki, Azərbaycanın iqtisadi gücü artdıqca vergi proqnoz tapşırıqları, büdcə daxilolmaları da təbii olaraq artır və bu artımın təmin edilməsi üçün vergi orqanları tam səfərbər olunmalıdır.

Cari ilin ötən altı ayında BŞVD-nin fəaliyyəti haqqında əyani təqdimat materialları ilə çıxış edən departamentin rəis müavini Rəşad Babayevin sözlərinə görə, ilin ilk yarısında qeyri-neft sektoru üzrə vergi daxilolmalarında BŞVD-nin xüsusi çəkisi 35,5% təşkil etmişdir. Ümumilikdə isə departament tərəfindən altı ay ərzində 560,4 milyon manat proqnoza qarşı dövlət büdcəsinə 579,8 milyon manat vəsait köçürülmüşdür. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 71,5 milyon manat və ya 14,1% çoxdur.

Məruzəçi kameral vergi yoxlamaları sahəsində tətbiq edilmiş yeniliklər və görülmüş işlərdən söhbət açaraq bildirmişdir ki, hesabat dövrü ərzində Bəyannamələr idarəsi tərəfindən kameral vergi yoxlamaları ilə 43 milyon 669,5 min manat əlavə vergi məbləği hesablanmışdır ki, bunun da 35 milyon 739,7 min manatı (81,8%) AVİS-dənkənar kameral vergi yoxlamaları üzrə olmuşdur. Hesabat dövrü ərzində ümumilikdə kameral vergi yoxlamaları ilə hesablanmış məbləğdən 16 milyon manatının dövlət büdcəsinə ödənilməsi təmin edilmiş, 26 milyon 745,5 min manatı isə artıq ödəmələr hesabına bağlanmışdır.

Qeyd edilmişdir ki, son illərdə bəyannamələrin könüllü, elektron qaydada təqdim edilməsi tendensiyası artmaqdadır. Xüsusilə elektron qaydaların tətbiqindən sonra bu sahədə mühüm irəliləyişə nail olunmuşdur. 2012-ci ilin yanvar-iyun aylarında təqdim edilmiş 292.853 vergi bəyannaməsinin 271.232-si və ya 92,6%-i elektron qaydada göndərilmişdir. Əlbəəl təqdim edilən bəyannamələrin sayı 375, poçt vasitəsilə göndərilən bəyannamələrin sayı isə 21.246 olmuşdur.

Tədbirdə BŞVD-nın Vergi ödəyicilərinin uçotu idarəsinin fəaliyyəti müzakirə edilmiş, vergi ödəyicilərinin qeydiyyatı və uçot-baza məlumatlarının dürüstləşdirilməsi istiqamətində görülmüş işlər barədə məlumat verilmişdir. Qeyd edilmişdir ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə hesabat dövrü ərzində qeydiyyata alınmış vergi ödəyicilərinin, təsərrüfat subyektlərinin, NKA-ların və POS-terminalların sayında nəzərəçarpacaq artımlar müşahidə olmuşdur. 2012-ci ilin yanvar-iyun ayları ərzində qeydiyyata alınmış vergi ödəyicilərinin sayı 14.418 olmaqla ötən ilin müvafiq dövrü ilə müqayisədə 17,9%, təsərrüfat subyektlərinin sayı 21.931 olmaqla ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,4 dəfə, NKA-ların sayı 21.602 olmaqla ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,7 dəfə, POS-terminalların sayı 21.561 olmaqla ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,8 dəfə çox olmuşdur.

Bildirilmişdir ki, hesabat dövrü ərzində borclu vergi ödəyicilərinin sayında və borc məbləğində də müsbət dinamika olmuşdur.

1 iyul 2012-ci il tarixə borclu vergi ödəyicilərinin sayı və borc məbləği həm ötən ilin müvafiq dövrü ilə, həm də 2012-ci ilin yanvar-iyun ayları ilə müqayisədə azalaraq 15.574 vergi ödəyicisi üzrə

1 milyard 161,5 milyon manat olmuşdur.

Vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi məsələləri ilə bağlı bildirilmişdir ki, Bakı şəhərində yerləşən vergi ödəyicilərinə xidmət mərkəzləri tərəfindən altı ay ərzində qəbul edilmiş ödəyicilərin sayı 13.168-ə çatmışdır (ötən ilin müvafiq dövrü ilə müqayisədə 8971 nəfər çox). Qəbul edilmiş vergi ödəyicilərinə müxtəlif növ 31.821 xidmət göstərilmişdir. Vergi ödəyicilərinin məlumatlandırılması işini daha da genişləndirmək və vaxt itkisinə yol verməmək

məqsədilə cari ilin ötən altı ayı ərzində onların elektron poçt ünvanlarına 576.200 məktub göndərilmişdir.

S.Məmmədxanov son vaxtlar vergi orqanları ilə vergi ödəyiciləri arasında elektron əlaqələrin, vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin genişləndiyini qeyd etmişdir. Vergi ödəyicilərinin elektron xidmətlərdən maksimum səviyyədə yararlanmaları üçün onlarla aparılan işlərin daha da intensivləşdirilməsinin zəruri olduğunu qeyd edən S.Məmmədxanov bildirmişdir ki, vergi ödəyicilərinin vergi orqanları tərəfindən göndərilən elektron məktubları vaxtında oxumaları üçün müvafiq tədbirlərin həyata keçirilməsinə böyük ehtiyac var. Vergi ödəyicilərinin telefonlarına mesajların göndərilməsi, vergi məsləhətçiləri ilə onların əlaqələrinin qurulması və s. kimi addımların atılması bu işin xeyrinə ola bilər.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsinin rəisi Elçin Məmmədov özəl vergi məsləhəti xidmətləri ilə vergi orqanları arasında əlaqələrin genişləndirilməsinin vacibliyinə diqqət çəkmişdir. Onun sözlərinə görə, bu əməkdaşlığın genişləndirilməsi vergi ödəyicilərinin məlumatlandırılması və onlara lazımi informasiyaların vaxtında çatdırılması işində mühüm rol oynayacaq. İdarə rəisi onu da bildirmişdir ki, bəyannamələri elektron qaydada göndərməklə bağlı fiziki şəxslərin fəallığını artırmaq üçün müvafiq tədbirlərin görülməsi zəruridir.

Vergilər nazirinin müavini Sahir Məmmədxanov tədbiri yekunlaşdırarkən bəzi çatışmazlıqları da qeyd edərək, gələcəkdə vergi daxilolmalarının təhlili, vergi potensialının araşdırılması işlərində yeni istiqamətlərin tətbiqinin vacib olduğunu vurğulamış, ümumilikdə isə BŞVD-nin fəaliyyətinin qənaətbəxş olduğunu bildirmişdir.

Rəşad SADIQOV